Agatha Christie

# NİLDƏ ÖLÜM

Tərcüməçi:
Fəridə Məmmədova

qanun nəşriyyatı

Agatha Christie

# DEATH ON THE NILE

Gəmi səyahəti. Sərnişinlər gözəl və varlı qadın Linetə nifrət edir. Onun bütün düşmənləri burdadır. Və Linet gecəyarı öldürülür. Puaro bütün sərnişinləri sorğu-suala tutur. Hamısının Lineti öldürmək üçün səbəbləri var. İstənilən sərnişin mübahisə əsnasında yerə düşən silahı götürüb onun kayutuna girə bilər. Dəqiq ipucu tapmaq çox çətindir.

Müəllif oxuculara yenə qüsursuz bir cinayət təqdim edir.

Amma Erkül Puaro üçün qüsursuz cinayət yoxdur...

**Agatha Christie** **DEATH ON THE NILE**
**Aqata Kristi** **NİLDƏ ÖLÜM**
Bakı, Qanun Nəşriyyatı, 2024, 192 səh.

Janr: fiction/roman/detektiv
Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 29.05.2024

Naşir: Şahbaz Xuduoğlu
Tərcüməçi: Fəridə Məmmədova
Texniki redaktor: Lalə Hüseyn
Mətn dizaynı: Rahilə Şamilqızı
Qapaq dizaynı: Rafael Qasım

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-36-489-7

© Qanun Nəşriyyatı, 2018; 2020; 2022; 2024

**Death On The Nile** © 1937 Agatha Christie Limited.
All rights reserved. AGATHA CHRISTIE and POIROT
are registered trade marks of Agatha Christie Limited
in the UK and/or elsewhere.

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım
hüquqları Qanun Nəşriyyatına məxsusdur.
Kitabın təkrar və hissə-hissə nəşri "Müəlliflik hüququ və əlaqəli hüquqlar
haqqında" Azərbaycan Respublikasının Qanununa ziddir.

## Birinci hissə

# İNGİLTƏRƏ

### I

– Linet Riçvey, – üç tac xanədanlığının sahibi cənab Bornabo dostunu dümsüklədi.

– Özüdür ki var, – dostu da təsdiqlədi.

İki kişi gözləri böyümüş halda gördükləri mənzərəni ağzıaçıq seyr edirdilər.

Böyük, qırmızı rəngli, Rols Roys markalı avtomobil yerli poçt idarəsinin qarşısında dayanmışdı. Avtomobildən cavan bir qız düşdü. Qızılı saçlı, qabarıq üz cizgiləri olan, gözəl bədənli, şapkasız və sadə geyimli gənc bir qız. Malton kəndində belə qızlara nadirən rast gəlmək olar. Qız cəld və məğrur yerişlə poçt binasına daxil oldu.

Cənab Bornabo:

– Bəli, özüdür ki var, – deyə yenə təkrarladı. Alçaq səs tonuyla davam etdi: – Milyonları var onun. Malikanəyə nələr xərcləyəcək Allah bilir. Hovuz, italyan tərzində bağ-bağça, rəqs zalları tikdirəcəkmiş. Evin yarısı sökülüb yenidən tikiləcək.

– Kəndə əməlli-başlı pul qoyulacaq, – dostu dedi.

– Bəli, bəli, Malton üçün fövqəladə bir hadisədir bu, – cənab Bornabo başını razılıq mənasında tərpətdi. Bizi də əməlli-başlı ruhlandırar.

– Corcun dövründən fərqli olacaq, – dostu bu dəfə daha əmin halda dilləndi.

– Onun evini atlar yıxdı, heç bir şansı qalmamışdı.

– Görəsən, malikanə üçün nə qədər alıb?

– 60 min deyirlər.

Dostu təəccüblə fit çaldı. Cənab Bornabo məmnun-məmnun sözünə davam etdi:

– Deyirlər hələ malikanənin təmiri üçün də bir o qədər xərcləməli olacaq.

– Arıq və cılız bədənli dostu, görəsən, bu qədər pulu haradan alıb?! – deyə soruşdu.

– Amerikadan. Deyilənə görə anası amerikan milyonerlərindən birinin yeganə övladı imiş. Lap filmlərdəki kimidir, hə?

Qız poçtdan çıxıb avtomobilinə oturdu. Maşın yolda gözdən itənə qədər hər iki kişi ardınca baxdılar.

Məncə bu ədalətli deyil,  – o donquldandı – o həm bu qədər gözəldir, həm də varlıdır. O, hər şeyə sahibdir. Yox, bu heç ədalətli deyil.

## II

Qəzetlərdən birinin dedi-qodu səhifəsindən:

“Çiz ma Tante-də şam yeməyi üçün gələnlər arasında cazibədar xanım Linet Riçveyi də gördüm. Xanım Coanna Sausvud, Lord Vindelşam və cənab Tobi Brüslə birlikdəydilər. Xanım Riçveyə babasından böyük var-

dövlət miras qaldığı hamıya məlumdur. Bu cazibədar xanım hazırda cameənin ən bəyənilən xanımıdır, bütün gözlər üzərindədir. Tezliklə nişanlanacağı xəbərini eşitmişik. Lord Vindelşamla çox xoşbəxt görünürdülər".

## III

Xanım Coanna Sausvud:

– Əzizim, məncə, bura çox gözəl olacaq, – dedi.

Linetin malikanədəki yataq otağında idilər. Pəncərədən bayırda bağça və ardınca uzanan düzənlik görünürdü.

Linet:

– Çox gözəldir, hə? – deyib qollarını pəncərənin qabağına dayadı.

Onun gözəlliyi qarşısında Coanna bir az sönük görünürdü. Coanna 27 yaşında, ucaboy, arıq bir qız idi. Nazik qaşları, ziyalı üzü vardı.

– Belə qısa bir zamanda xeyli iş görmüsən, memar gətirtmisən?

– Hə, üç memar işləyir.

– Necə adamlardı, kimlərdəndilər? Heç vaxt bir memarla tanış olmamışam.

– Yaxşı insanlardır, amma hərdən mənə elə gəlir çox ləngdirlər.

– Əzizim, tezliklə hər şeyi nizama salacaqsan, sən çox çəldsən, – deyib Coanna güzgünün qabağındakı mirvari boyunbağını götürdü.

– Bunlar həqiqi incidir?

– Əlbəttə ki, hə.

– Sənin üçün adi şeydir, amma burda beləsini heç kim taxmır. Hamı süni mirvarilər alır. Bu boyunbağı hər halda çox dəyərlidir.

– Səncə, bayağı deyil?

– Yox, yox, əsla, bunlar çox gözəldir. Neçəyədir görəsən?

– Səhv etmirəmsə, 50 min.

– Düzü, olduqca bahalıdır, qorxmursan bəs itirərsən?

– Yox, həmişə boynumda olur, özü də sığortalıdır.

– Əzizim, olar yeməyə qədər bu boyunbağı boynumda qalsın? Çox xoşuma gəldi!

Linet güldü:

– Əgər belə çox istəyirsənsə, qalsın da.

– Bilirsən sənə necə həsəd aparıram, Linet?! Hələ 20 yaşın var, amma hər şeyə sahibsən, həyatını istədiyin kimi yaşaya bilirsən, pulun çox, gözəllik desən səndə, sağlamlığın yerində, hətta ağıllısan da. 21 yaşın haçan tamam olacaq?

– Gələn il iyun ayında. Londonda gözəl bir ziyafət verəcəm.

– Sonra da Çarlezə ərə gedəcəksən, hə? O, qorxunc dedi-qoduları yazanlar bunu necə səbirsizliklə gözləyir, bilirsən?

– Hələ bilmirəm. – Linet çiyinlərini çəkdi. Hələ ki, ərə getmək fikrim yoxdur.

– Haqlısan. Ailə qurandan sonra heç nə əvvəlki kimi olmur deyəsən, çox şey dəyişir.

Telefon zil səslə zəng çaldı. Linet dəstəyi götürdü:

– Alo, bəli, bəli?

Xəttin o biri ucundan qulluqçu oğlanın səsi eşidilirdi:

– Xanım Bellefort sizinlə danışmaq istəyir, cavab verəcəksiniz?

– Aha, təbii ki, gözləyirəm.

Əvvəlcə şıqqıltı, ardından da mülayim bir səs eşidildi.

– Alo, alo, danışan xanım Riçveydir? Linet, sənsən?

– Bəli, əzizim, səni yaxşı eşitmirəm.

– Bilirəm, bilirəm, əzizim, səni görməyi elə arzulayıram ki.

– Ceki, bura gələ bilməzsən? Yeni oyuncağımı sənə göstərmək istərdim.

– Mən də elə bunu istəyirəm, əzizim.

– Onda tez bir zamanda ya avtomobilinlə, ya da qatara minib bura gəlirsən.

– Oldu, ikinəfərlik köhnə maşınımla elə indi yola çıxıram. Kefinə düşəndə yaxşı işləyir, birdən də işləmir. Günortaya qədər gəlib çatmasam, bil ki, yenə tutması tutub. Gəlirəm, əzizim, görüşənədək, hələlik.

Linet dəstəyi asıb Coannanın yanına qayıtdı.

– Köhnə rəfiqələrimdəndir, – Cekulin de Bellefort. Parisdə monastırda birgə oxumuşuq. Yazıq, çox acı taleyi oldu. Atası fransız, anası amerikan idi. Atası başqa bir qadın üçün onları tərk edib getdi, anası da pulunu idarə edə bilmədiyi üçün müflisləşdi. Ceki bir köpüksüz qaldı. Heç xəbərim olmadı, son iki ili o necə yaşayıb, görəsən?

Coanna tünd qan rəngində boyanmış dırnaqlarını rəfiqəsinin güzgü stolundan götürdüyü alətlə parıldadırdı.

– Əzizim, səncə bu, qanqaraldıcı vəziyyət yaratmaz? Mən dostlarımdan hansınınsa başına bədbəxt hadisə gələndə o saat onunla bütün əlaqələrimi kəsirəm. Bəlkə qəddar səslənir, amma bu yolla özümü gələcəkdəki problemlərdən qorumağa çalışıram. Çünki gec-tez gəlib borc istəyirlər. Ya da bir dərzi dükanı açıb gözləyirlər ki, sən gedib onların gic-gic mallarına pul verib alasan.

– Demək, var-dövlətimi itirsəm o saat mənimlə əlaqəni kəsərsən, hə?

– Hə, əzizim, elə belə də edərəm. Çox adam belə düşünür, sadəcə, bunu dilə gətirmək istəmirlər.

– Qorxunc insansan, Coanna.

– Xeyr, sadəcə, hamı kimi mən də öz mənafeyimi güdürəm.

– Amma mən belə deyiləm.

– Olmazsan da, hər üç aydan bir o amerikanlardan nə qədər pul gəlir sənə.

– Özü də sən Ceki haqqında tamam yanlış fikirdəsən. Mən dəfələrlə ona kömək etmək istəsəm də o bunu istəməyib. Çox qürurlu insandır.

– Bəs onda indi niyə səni belə həyəcanla axtarır? Əminəm ki, nəsə istəyəcək səndən, gözlə və gör.

– Hə, etiraf edirəm ki, həyəcanlı idi. Amma bu onun xarakteridir. Nəsə bir hadisə baş verən kimi o həyəcanlanır. Bir dəfə bir oğlana alışqan batırmışdı hələ, – Linet güldü. –Küçədə bir uşaq iti döyürdü. Ceki iti oğlanın əlindən almağa çalışır, oğlan da müqavimət göstərirdi, qızdan güclüydü. Birdən Ceki çantasından çıxardığı alışqanı oğlana batırdı. Ondan sonra qiyamət qopdu.

– Qopar da, – Coanna dilucu mızıldandı.

Linetin otağını təmizləyən qulluqçu qız içəri girib astaca üzr istədi və şkafdan bir paltar götürüb çıxdı.

– Meriyə nə olub? Elə bil ağlamışdı.

– Sənə demişdim onun Misirdə nəyləsə məşğul olan bir kişiyə ərə getməyə hazırlaşdığını? Kişini elə də yaxşı tanımırdı deyə qərara gəldim ki, araşdırım görüm kimdir, nəçidir. Məlum oldu ki, evlidir, hətta üç uşağı var.

– Linet, özünə nə qədər düşmən qazanmısan, Allah bilir.

– Düşməəən? – Linet təəccübləndi.

– Hə, əzizim, düşmən. Coanna qutudan bir siqaret çıxartdı. Sən insanları sarsıda biləcək gücdəsən. Harada neyləməli olduğunu da yaxşı bilirsən.

– Mənim yer üzündə bircə dənə də düşmənim yoxdur, – Linet güldü.

## IV

Lord Vindelşam sidr ağaclarının altında oturub malikanəyə baxırdı. Payız günəşinin şəfəqləri altında malikanə möhtəşəm görünürdü. Amma indi bura malikanədən çox birinci Yelizavetanın dövrünə aid qəsri xatırladırdı. Bu onun qəsri idi... Orda bir qadın vardı – qızılı saçlı, həyəcanlı, gözəl bir qız – Linet qəsrin xanımı olacaq.

Çarlez çox ümidli idi. Linetin yox deməsi hələ ki, son və qəti qərar deyildi, sadəcə, bir az zaman istəmişdi və Çarlez bir qədər gözləyə bilərdi. Sanki hər şey qəribə bir qanunauyğunluqla baş verirdi. Düzdür, bu evlilikdən var-dövlət güdsə də Lineti də sevirdi. Düşünürdü ki, hətta bu qızın bir qara qəpiyi olmasa belə yenə də onunla evlənmək istəyərdi. Sadəcə, indi neyləyək ki, bu gözəl xanım İngiltərənin ən varlı xanımlarından biri idi.

Çarlez gələcək haqda planlar qururdu... Ovçular klubunun müdiri olacaqdı... İsveçrədəki ov köşkünü satmaq məcburiyyətində də qalmayacaqdı... Çarlez Vindelşam günəşli havada oturub xəyallar aləmində üzürdü.